UOT: 614.2

Sosial əhəmiyyətli infeksion xəstəliklərin epidemioloji xarakteristikası

[1] K.Ə. Cəfərova, [1] S.A. Atakişizadə, [2]Q.İ. İsmayılov
Azərbaycan Tibb Universiteti, [1]Yoluxucu xəstəliklər kafedrası
[2]I Uşaq xəstəlikləri kafedrası, Bakı

Xülasə: Məqalədə müalliflər bəzi viruslu, bakterial xəstəliklərin, o cümlədən respirator xəstəliklər zamanl aparılan profilaktik tədbirlər, sanitar-gigiyena rejimlərə əməl edilməsi məsələri öz əksini tapmışdır. Müəlliflər qeyd edirlər ki, urbanizasiyanın səviyyəsi də artması müxtəlif patogenlərinin ötürülməsi üçün zəmin yaradan əas faktorlardandır. Nəticədə dünyanın müxtəlif reginalrıdan zamanla müxtəlif epidemioloji alışmalar baş verir, infeksiyaların yayılma intensivliyi artır. Bu konteksdə Şimali Afrikda Zika infeksiya virusu və Ebola imfeksiyaları. Hər bir infeksion xəstəlik özunun spesifik bioloji və ekoloji aspektlərinə malik, coğrafi regionalar fərqli təsir göstərir. Bu səbəbdən hər bir epidemik alışma xüsusi tədbirlərin görülməsini tələb edir. infeksion patologiyalara məruz qalmış xəstələrin həyat keyfiyyətinin səviyyəsi təkcə fərdi deyil, geniş mənada ictimai, hətta qlobal səviyyədə tədqiq edilməlidir. Bu xəstələrin həyat keyfiyyəti aparılan profilatika tədbirlərin müasirliyi və intensivliyindən asılıdır. Qeyd edilmişdir ki, infeksion patologiyalara məruz qalmış xəstələrin həyat keyfiyyətinin səviyyəsi təkcə fərdi deyil, geniş mənada ictimai, hətta qlobal səviyyədə tədqiq edilməlidir. Bu xəstələrin həyat keyfiyyəti aparılan profilatika tədbirlərin müasirliyi və intensivliyindən asılıdır.

Açar sözlər: infeksion xəstəliklər, epidemiologiya, sosial mahiyyət

Müasir praktik tibb dövlət səviyyəsində yeni milli ideologiyanın formalaşmasında müxtəlif mütəxəssislərin profilaktik fəaliyyətlərinin prioritetliyi ilə sağlamlıq üçün zəruri olan texnologiyaların tətbiqinə və inkişafına yönəlmişdir. Profilaktik təbabətin effektivliyi yerli gigiyenistlərin və epidemioloqların, bütün tibbi mütəxəssiləri tərəfindən nəzəri əsaslandırılmış və tətbiq edilərək, yüksək effektivliyi sübut edilmişdir. Son illər "həyat keyfiyyəti" anlayışı tibbin, səhiyyənin ayrılmaz tərkib hissəsinə çevrilmişdir.

Əlverişsiz demoqrafik proseslər və cəmiyyətin kəskin sosial-iqtisadi diferensiasiyası şəraitində hər bir ölkənin iqtisadi fəal əhalisinin sağlamlığının möhkəmləndirilməsi milli siyasətin mühüm vəzifəsidir. Əmək qabiliyyətli əhalinin həyat keyfiyyəti və sağlamlıq məsələsi sosial əhəmiyyətli xarakter daşıyır, çünki cəmiyyətin sosial-iqtisadi problemlərinin uğurlu həlli əhalinin bu hissəsinin nə qədər sağlam olacağından çox asılıdır. Məlumdur ki, həyat keyfiyyətinə fiziki, əqli və sosial rifah və özünü həyata keçirməyə imkan verən həyat şəraitinin və sağlamlıq şəraitinin məcmusu daxildir. Müasir tədqiqatların nəticələri həyat tərzinin əhalinin, o cümlədən əmək qabiliyyətli yaşda olanların sağlamlığı ilə bağlı həyat keyfiyyətinin müxtəlif göstəricilərə nisəbətəb üstünlük təşkil etdiyini göstərir.

Əhalinin həyat keyfiyyətinin və sanitar-epidemioloji əmin-amanlığının ən mühüm göstəricilərindən biri sosial əhəmiyyətli yoluxucu xəstəliklərin yayılmasıdır. Yoluxucu xəstələnmə səviyyəsini azaltmaq üçün profilaktik tədbirləri əsaslandırmaq üçün epidemik proseslərin struktur və kəmiyyət xüsusiyyətlərini, tendensiyalarını və inkişaf perspektivlərini bilmək lazımdır. İnfeksion xəstələnmənin struktur və kəmiyyət xüsusiyyətləri müxtəlif zaman dövrlərində və müxtəlif

ərazilərdə bəzi risk faktorlarının əhəmiyyətinin və təsirinin zəifləməsi, digərlərinin isə artması ilə dəqiq müəyyən edilir.

Urbanizasiyanın səviyyəsi də artması müxtəlif patogenlərinin ötürülməsi üçün zəmin yaradan əas faktorlardandır. Nəticədə dünyanın müxtəlif reginalrıdan zamanla müxtəlif epidemioloji alışmalar baş verir, infeksiyaların yayılma intensivliyi artır [1]. Bu konteksdə Şimali Afrikda Zika infeksiya virusu [2] və Ebola imfeksiyaları [3]. Hər bir infeksion xəstəlik özunun spesifik bioloji və ekoloji aspektlərinə malik, coğrafi regionalar fərqli təsir göstərir. Bu səbəbdən hər bir epidemik alışma xüsusi tədbirlərin görülməsini tələb edir. Lakin bununla yanaşı ümumilikdə infeksioan xəstəliklərin aradan qaldırılması və sonluqların yüngülləşdirilməsi üzrə "universal strategiyalar" işlənib hazırlanmışdır ki, onlar da etibarli nəticələrə nail olmağa imkan verir. Bu strategiyalar insan, ıtarfa mühit, heyvanlar və patogenlər birliyinə kompelsk şəkildə yanaşmanı özündə birləşdirir [4]. Bu nöqteyi-nəzərdən insanlar, heyvanlar və ətraf mühit arasında qaşılıqlı əlaqələin intensivliyi və tipləri infeksion xəstəliklərin yayılmasına nəzarətə almağa imkan verir.

Sağlamlığın Gücləndirilməsi Nəzəriyyəsi (HSET) fərdlərin sağlamlığının təşviqində fərdi idrak-davranış dəyişənlərinin (məsələn, sağlamlıq motivasiyası, sağlamlıqla bağlı öz effektivliyi, müsbət mübarizə) əhəmiyyətini vurğulayır [5]. Yoluxucu xəstəliklərin qarşısının alınması, düzgün davranışı-gigiyena qaydalarının təmin edilməsi sağlamlığın möhkəmləndirilməsində mühüm rol oynadığı müəyyən edilmişdir [6]. Yoluxucu xəstəliklərin qarşısının alınması davranışları, tənəffüs xəstəliklərinin qarşısını almaq üçün epidemiya zamanı açıq havada maska taxmaq kimi yoluxucu xəstəliklərin qarşısının alınması və müalicəsi üçün fərdlər tərəfindən həyata keçirilən bir sıra profilaktik sağlamlıq tədbirlərinə aiddir. Bəzi tədqiqatçılar aşkar etmişlər ki, yoluxucu xəstəliklərin qarşısının alınması davranışları ilkin immunçatışmazlığı olan xəstələrin həyat keyfiyyətinin yaxşılaşdırılması üçün çox vacibdir [7] və sağlam qocalmanı təşviq etmək və həyat keyfiyyətini qorumaq üçün mühüm tədbirdir [8]. Yoluxucu xəstəliklərin qarşısının alınmasına yönəlmiş davranış təkcə insanın həyat keyfiyyətinə deyil, həm də öz effektivliyinə təsir göstərir [9].

İnfeksion xəstəliklərin profilatikası üzrə davranışlar dedikdə, sağlamlığın profilatikasına yönəlmiş bir çox tədbirlər toplusu nəzərdə tutulur. Bu tədbirlər həm ayr-ayrı fərqlər, həm də ictimai şəkildə ümumi cəmiyyət tərəfindən həyata keçirilə bilər. bir çox tədqiqatlarda məlum olmuşdur ki, infeksioan xəstəliklərin profilaktikası üzrə davranışlar normasının təyin edilməsi immundefisiti virus infeksiyası tezliyinin aşağı salınmasında böyü rol oynayır. Bununla da cəmiyyətdə sağlam qocalma və keyfiyyətli həyat səviyyəsinin təmin edilməsi mümkün olur. İnfeksioan xəstəliklərinin profilatikası üzrə davranışların gücləndirilməsi sadəcə həyat keyfiyyətinin yüksətmir, həm də insanların effektiv, məhsuldar fəaliyyəti təmin edir.

Tədqiqatçı Bandura 1990-cı ildə infeksion xəstəliklər zamanı həyat keyfiyyətini təyin edərək özününeffektivliyi kimi anlayışı yaratmışdır. Bu ifadə ilə müəllif insanların özlərinə, öz fəlaiyyətlərinə, uğur qazanmalarına inamını qeyd edirdilər [10]. Digər tədqiqatlarda insanların konkret infeksion xəstəliklərin yüksək səviyyəli profilaktik tədbirlərilə cəmiyyətin effektiv fəaliyyəti arasında güclü korrelyasiyanln olduğunu göstərmişıər [11]. Belə tədbirlərdən əsası vaksinasiya olmuşdur.

Vaksinasiya infeksioan xəstəliklərin profialtikasında həlledici məqam olmuşdur. Məsələn, 2000-ci ildən vaksinasiya tədbirləri qızılca xəstəliyinin tezliyinin aşağı salaraq, 20 ml. Ölümün qarşısını almağa imkan vermişdir [12].

2021-ci ildə T.Zhou (2021) tərəfindən aparılan tədqiqatda müxtəlif patologiyalar üzrə xəstələrin həyat keyfiyyıti tədqiq edilmişdir. Tədqiqat EQ-5D-5L anket sorğusu üzrə aparılmışdır. Xəstəliklər arasında şəkərli diaber, dağınıq skleroz, üzrək-damar xəstəliklər, ağciyərlərin xornik obstruktiv xəstəlikləri ilə yanaşı QİÇS kimi infeksioan xəstəlik də yer almışdır. Alınan nəticələrin metaanlizi aparılmış, tədiqiqatlar çox böyük materiala əsaslanmışdır [13]. Tədqiqatlar nəticəsində infeksion patologiyalar zamanı həyat keyfiyyətinin digər xəstəliklərə nisbətən daha çox pisləşməsi, mental vəziyyətin ağırlaşması qeyd olunmuşdur.

İnfeksiya ötürülməsi ilk növbədə sıx təmada olan kollektivlərdə baş verir. Bunlara ev təsərrüfatları, uşaq bağçaları, məktəbləti, iş yerlərini göstərmək olar. Təsadüfi təmaslarda da infeksiya ötürülməsi mümkündür.

Ekoloji system nəzəriyyəsinə əsasən inkişafda olan insan dörd ekosistem amilinə tabe olur? Mikrosistem, aralıq sistem, xarici sistem və makrosistem. Hər bir ailə mikrosistemin nüvəsi hesab edilərək, fərdi inkişafa birbaşa təsir göstərdiyi bildirilmişdir [14]. Bu baxımdan ailə sağlamlığın struktur determinantı hesab edilir [15]. Ailə strukturları da infeksion xəstəliklər üzrə profilaktik tədbilərin aparılması, gigiyenik davranışların formalaşasında böyük rol oynayır [16].

Beləliklə, infeksion patologiyalara məruz qalmış xəstələrin həyat keyfiyyətinin səviyyəsi təkcə fərdi deyil, geniş mənada ictimai, hətta qlobal səviyyədə tədqiq edilməlidir. Bu xəstələrin həyat keyfiyyəti aparılan profilatika tədbirlərin müasirliyi və intensivliyindən asılıdır.

ƏDƏBİYYAT

1.Bedford J, Farrar J, Ihekweazu C, Kang G, Koopmans M, Nkengasong J. A new twenty-first century science for effective epidemic response. Nature. 2019;575:130–136

2. Faria NR, Quick J, Claro IM, Thézé J, de Jesus JG, Giovanetti M, Kraemer MUG, Hill SC, Black A, da Costa AC, et al. Establishment and cryptic transmission of Zika virus in Brazil and the Americas. *Nature.* 2017;546:406–410.

3.Coltart CEM, Lindsey B, Ghinai I, Johnson AM, Heymann DL. The Ebola outbreak, 2013-2016: old lessons for new epidemics. Philos Trans R Soc Lond B Biol Sci. 2017;372:20160297.

4. Calistri P, Iannetti S, Danzetta ML, Narcisi V, Cito F, Di Sabatino D, Bruno R, Sauro F, Atzeni M, Carvelli A, et al. The components of 'One World - One Health' approach. Transbound Emerg Dis. 2013;60:4–13

5. Tucker CM, Butler AM, Loyuk IS, Desmond FF, Surrency SL. Predictors of a health-promoting lifestyle and behaviors among low-income African American mothers and White mothers of chronically ill children. J Natl Med Assoc. 2009;101(2):103–10

6. Wippold GM, Frary SG. The role of modifiable, self- empowerment-oriented variables to promote health-related quality of life among inadequately insured Americans. J Prim Prev.2021;43:95–110

7. Ishimura M, Takada H, Doi T, Imai K, Sasahara Y, Kanegane H, et al. Nationwide survey of patients with primary immunodeficiency diseases in Japan. J Clin Immunol. 2011;31(6):968–76

8. Weinberger B. Vaccination of older adults: influenza, pneumococcal disease, herpes zoster, COVID-19 and beyond. Immun Ageing. 2021;18(1):38.

9. Kim I-O, A. Survey on the situation. Experience and educational need of infectious diseases management of childcare teacher. Korean J Child Educ Care. 2014;14(1):23–50

10. Bandura A. Perceived self-efficacy in the exercise of control over AIDS infection. Eval Program Plan. 1990;13(1):9–17.

11. Wang F., Ge P., Li D. et al. The impact of infectious disease prevention behavior on quality of life: A moderated mediation model // Health Care Sci. 2022;1:135-145

12. M.D. Shin, S. Shukla, Y.H. Chung, V. Beiss, S.K. Chan, O.A. Ortega-Rivera, D.M. Wirth, A. Chen, M. Sack, J.K. Pokorski, N.F. Steinmetz
COVID-19 vaccine development and a potential nanomaterial path forward
Nat. Nanotechnol., 15 (2020), pp. 646-655

13. Zhou T, Guan H, Wang L, Zhang Y, Rui M, Ma A. Health-Related Quality of Life in Patients With Different Diseases Measured With the EQ-5D-5L: A Systematic Review. *Front Public Health*. 2021;9:675523

14. Bronfenbrenner U. The ecology of human development: experiments by nature and design. Harvard University Press; 1979

15. Banik A, Zarychta K, Knoll N, Luszczynska A. Cultivation and enabling effects of social support and self-efficacy in parent −child dyads. Ann Behav Med. 2021;55(12):1198–1210.

16. Cui C, Li SZ, Zheng XL, Cheng WJ, Ting W. Participation in healthcare behavior by adolscents with epilepsy and factors that influence it during the transition period: a cross-sectional study in China. Epilep Behav. 2020;113:113107576

Эпидемиологическая характеристика социально значимых инфекционных болезней

[1] К.А. Джафарова, [1] С.А. Атакишизаде, [2] Г.И. Исмаилов

Азербайджанский медицинский университет, [1]кафедра инфекционных болезней [2]кафедра детских болезней, Баку

Резюме: В статье авторы отразили вопросы профилактических мер при некоторых вирусных и бактериальных заболеваниях, в том числе заболеваний органов дыхания, и соблюдения санитарно-гигиенических режимов. Авторы отмечают, что повышение уровня урбанизации является одним из основных факторов, создающих основу для передачи различных возбудителей. В результате в разных регионах мира с течением времени происходят различные эпидемиологические изменения, увеличивается интенсивность распространения инфекций. В этом контексте инфекция вируса Зика и инфекция Эбола в Северной Африке. Каждое инфекционное заболевание имеет свои специфические биологические и экологические аспекты, а географические регионы затрагиваются по-разному. По этой причине каждая вспышка требует принятия специальных мер. уровень качества жизни больных, подвергшихся инфекционной патологии, необходимо изучать не только на индивидуальном, но и на общественном и даже глобальном уровне в широком смысле. Качество жизни этих больных зависит от своевременности и интенсивности проводимых профилактических мероприятий. Было отмечено, что уровень качества жизни пациентов, подвергшихся инфекционным патологиям, необходимо изучать не только на индивидуальном, но и на общественном, даже глобальном уровне. Качество жизни этих больных зависит от своевременности и интенсивности проводимых профилактических мероприятий.

Ключевые слова: инфекционные болезни, эпидемиология, социальная природа.

Epidemiological characteristics of social significant infectious diseases

[1] K.A. Jafarova, [1] S.A. Atakishizade, [2] G.I.Ismailov

Azerbaijan Medical University, [1]department of infectious diseases [2]Department of childhood diseases, Baku

Summary: In the article, the authors reflected on the issues of preventive measures for certain viral and bacterial diseases, including respiratory diseases, and compliance with sanitary and hygienic regimes. The authors note that increasing urbanization is one of the main factors creating the basis for the transmission of various pathogens. As a result, various epidemiological changes occur in different regions of the world over time, and the intensity of the spread of infections increases. In this context, Zika virus infection and Ebola infection in North Africa. Each infectious disease has its own specific biological and environmental aspects, and geographic regions are

affected differently. For this reason, each outbreak requires special measures. The level of quality of life of patients exposed to infectious pathology must be studied not only at the individual, but also at the social and even global level in a broad sense. The quality of life of these patients depends on the timeliness and intensity of preventive measures. It was noted that the level of quality of life of patients exposed to infectious pathologies needs to be studied not only at the individual, but also at the social, even global level. The quality of life of these patients depends on the timeliness and intensity of preventive measures.

Key words: infectious diseases, epidemiology, social nature

Daxil olub: 26.10.2023